# QURUCU LİDER

## Prezident İlham Əliyev Qarabağ və Şərqi Zəngəzura yeni həyat bəxş edir



"Necə bahalı olursa-olsun, biz Qarabağı və Zəngəzuru yenidən quracağıq. Bu, bizim milli ideyamızdır". Bu il oktyabrın 5-də Ağdamda keçirilən Azərbaycan Milli Şəhərsalma Forumunda dövlət başçısı İlham Əliyev işğaldan azad edilən torpaqlarımızda qısa zaman ərzində yüksək keyfiyyətlə geniş quruculuq və bərpa işlərinin aparılmasını və keçmiş məcburi köçkünlərin dədə-baba yurdlarına qaytarılmasını Azərbaycan dövlətinin əsas prioriteti olduğunu elan etdi.

Vətən müharibəsi sayəsində 30 illik işğaldan qurtulan tarixi torpaqlarımızda quruculuq zəfəri yaşanır, 44 gün ərzində bir-bir azadlığına qovuşdurulan kənd və şəhərlərimiz başdan yaradılır. Bu ərazilərimizdə meqa layihələr gerçəkləşdirilir, infrastruktur qurulur, beynəlxalq hava limanları tikilib istifadəyə verilir, "ağıllı kənd"lər, "ağıllı şəhər"lər salınır. Onilliklər boyu vəhşi düşmənin dağıtdığı tarixi, mədəni, dini irsimiz bərpa olunur, məhv edilən ekologiyamız yenidən dirçəldilir.

Bir sözlə, cəmi iki il əvvələ qədər hər birimizə möcüzə kimi görünən bütün bu işlər Müzəffər Sərkərdə İlham Əliyevin komandanlığı ilə əldə olunan parlaq Zəfər sayəsində gerçəklik qazanıb.

### Büdcə siyasətinin qarşısında duran əsas çağırışlardan biri

Azərbaycan ağır müharibədən çıxsa da, çox qısa zamanda işğaldan azad etdiyi bölgələri öz iqtisadiyyatının gücü sayəsində yenidən qurur, bu ərazilərdə irimiqyaslı infrastruktur layihələri icra edir.

Dövlət başçısı İlham Əliyev bu mühüm məqama xüsusi diqqət çəkərək vurğulayıb ki, "İndi dünyada müxtəlif yerlərdə gedən iqtisadi proseslər, çətinliklər, böhranlar onu göstərir ki, Azərbaycan iqtisadiyyatı dayanıqlı iqtisadiyyatdır. Belə ağır müharibədən çıxmış ölkə azad edilmiş torpaqlarda iki il ərzində genişmiqyaslı quruculuq işləri aparır. Bütün bu işlərin də maliyyə mənbəyi Azərbaycan büdcəsidir".

Ötən iki il ərzində Qarabağ və Şərqi Zəngəzurda gerçəkləşdirilən quruculuq bərpa işləri ilə əlaqədar dövlət büdcəsindən bütövlükdə 5 milyard manata yaxın vəsait ayrılıb.

Böyük qayıdışın tərkib hissəsi kimi Qarabağ və Şərqi Zəngəzurda əhalinin dayanıqlı məskunlaşması üçün ilkin şərtlərin yaradılması gələn ilin büdcə siyasətinin qarşısında duran əsas çağırışlardan biridir. İşğaldan azad edilmiş ərazilərdə bərpa və yenidənqurma işlərinin daha geniş həcmdə davam etdirilməsi, keçmiş məcburi köçkünlərin öz əzəli yurdlarına mərhələli şəkildə qayıtması və məskunlaşması, bunun üçün sosial-məişət, təhlükəsizlik və məşğulluq şəraitinin yaradılması üzrə tədbirlərin həyata keçirilməsi, həmin ərazilərdə dövlət idarəetmə qurumlarının təşkili və fəaliyyəti ilə bağlı 2023-cü ilin dövlət büdcəsində müvafiq maliyyə təminatı yaradılıb. Belə ki, 2023-cü ildə işğaldan azad edilmiş ərazilərin bərpası üçün 3 milyard manat vəsait ayrılması nəzərdə tutulub.

### Milli ideyanın təcəssümü olan meqalayihələr

İşğaldan azad etdiyi torpaqlarında bütün quruculuq və bərpa işlərini öz maliyyə gücü hesabına müvəffəqiyyətlə reallaşdıran Azərbaycan dövləti cəmi 8 ay ərzində Qarabağın "hava qapısı" adlandırılan Füzuli Beynəlxalq Hava Limanını tikib istifadəyə verib. Bu il oktyabrın 20-də, Zəngilanın azadlıq günündə Zəngilan Beynəlxalq Hava Limanının açılış mərasimi keçirilib. Hər iki beynəlxalq hava limanının açılışı Prezident İlham Əliyev və qardaş Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə baş tutub. Şərqi Zəngəzurda tikilən daha bir beynəlxalq hava limanının, Laçın Beynəlxalq Hava Limanının isə 2025-ci ildə istifadəyə verilməsi nəzərdə tutulur.

İşğaldan azad edilən ərazilərdə yol infrastrukturunun qurulması da yüksək keyfiyyətlə icra olunur. 2023-cü ildə Bərdə-Ağdam dəmir yolunun istifadəyə verilməsi planlaşdırılır. Təsdiq olunmuş investisiya planına əsasən, işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur ərazisində ümumi uzunluğu 50 kilometrdən çox olan 33 tunel tikiləcək, uzunluğu 12 kilometr olan 84 yeni körpü salınacaq.

Bütün azad olunmuş ərazilərdə elektrik təchizatı tamamilə bərpa edilib. 2022-ci il martın 15-də 230 MVt gücündə "Qaradağ" Günəş-Elektrik Stansiyasının təməlqoyma mərasimi keçirilib. İşğaldan azad olunmuş ərazilərdə bərpaolunan enerjinin potensialı on min meqavat təşkil edir. Artıq bir neçə su-elektrik stansiyasının açılışı olub. Su-elektrik enerjisinin ümumi gücü beş yüz meqavatdan çox olacaq. Yerdə qalan güc isə günəş və külək elektrik enerjilərindən qaynaqlanacaq.




Artıq qələbədən sonra Böyük qayıdışa startın verilməsi və Zəngilan rayonunun Ağalı kəndinə sakinlərin köçürülməsi isə Vətən müharibəsinin üzərindən ötən iki illik qısa zaman müddətində əldə olunan misilsiz uğurların daha bir parlaq nümunəsidir.

### İlk təməl daşı Ağdamda qoyuldu

Vətən savaşından sonra Prezident İlham Əliyev mütəmadi olaraq işğaldan azad edilən ərazilərə səfər edərək görülən işlərlə yerində tanış olur, tapşırıqlarını verir, tarixi torpaqlarımızda öz əlləri ilə yeni həyatın təməllərini qoyur.

Ötən il mayın 28-də - Müstəqillik Günündə Prezident İlham Əliyev Ağdamın ilk təməl daşını qoyaraq Qarabağın bu qədim şəhərinin dirçəlişinə start verdi. Erməni vandallarının 30 il müddətində daşı-daş üstündə qoymayaraq viranəyə çevirdiyi Ağdamda artıq böyük quruculuq işləri gedir. Bu ilin oktyabr ayında Prezident İlham Əliyev tərəfindən Ağdamın 3 kəndinin - Xıdırlı, Kəngərli və Sarıcalının təməli qoyulub və maksimum iki ildən sonra həmin kəndlərdə bir neçə min insan yaşayacaq.

İşğaldan azad edilmiş torpaqlar arasında ən genişmiqyaslı bərpa işləri mədəniyyət paytaxtımız Şuşada aparılır. Bu il 270 illik yubileyini qeyd etdiyimiz qədim şəhərimizin Baş planı da təsdiqlənib. Baş plan hazırlanarkən Şuşanın tarixi əzəmətinin qorunması əsas götürülüb. Şəhərin bərpası baş plan çərçivəsində sistemli şəkildə həyata keçirilir. Şuşada yeni məktəb binasının, xəstəxananın, məscidin, beşulduzlu mehmanxananın, konfrans mərkəzinin, televiziya qülləsinin tikintisinə başlanılıb, eləcə də ilk yaşayış kompleksinin inşasına start verilib.

### Böyük qayıdışın ilk ünvanı Ağalı oldu

Füzuli şəhərinin baş planı da təsdiq edilib. Ötən il oktyabrın 17-də Füzuli Memorial Kompleksi və Füzuli şəhərinin təməl daşı İlham Əliyev tərəfindən qoyulub.

Müasir standartlar və memarlıq xüsusiyyətlərinə uyğun inşa ediləcək Füzuli şəhəri 50 min sakini olan yaşayış məntəqəsi kimi istifadəyə veriləcək.

Füzuli rayonunda cəmi 8 ay ərzində Füzuli Beynəlxalq Hava Limanı tikilərək istifadəyə verilib. Rayonun Dövlətyarlı kəndində "ağıllı kənd" konsepsiyası əsasında yaradılacaq böyük yaşayış məntəqəsinin də əsası dövlət başçısı İlham Əliyev tərəfindən qoyulub.

İşğaldan azad edilən ilk şəhərimiz Cəbrayılın azadlığının birinci ilində, 2021-ci il oktyabrın 4-də İlham Əliyev rayon ictimaiyyətinin nümayəndələri ilə birlikdə şəhərin bərpasının təməl daşını qoyub. Həmçinin dövlət başçısının iştirakı ilə Cəbrayılda "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının, Cəbrayıl Rayon Mərkəzi Xəstəxanasının, akademik Mehdi Mehdizadə adına tam orta məktəbin, ilk çoxmənzilli yaşayış məhəlləsinin, Memorial Kompleksin təməlqoyma mərasimləri keçirilib.

Bu il isə Prezident İlham Əliyev Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanla birgə Cəbrayıl rayonu ərazisində yaradılacaq "Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi", "Ağıllı Tingçilik" və "Dostluq Meşəsi" Kompleksinin təməlqoyma mərasimində iştirak edib.

2022-ci il mayın 26-da Zəngilana səfər edən Prezident İlham Əliyev şəhərin baş planını təsdiq edib. Layihəyə əsasən, Zəngilan şəhəri beynəlxalq əhəmiyyətli Zəngəzur nəqliyyat dəhlizi ilə sıx əlaqələri olan strateji əhəmiyyətli yaşayış məntəqəsi kimi inkişaf etdiriləcək.

Bu il mayın 27-də isə tariximizin daha bir parlaq səhifəsini çevirdik, Zəfərdən sonra torpaqlarımıza Böyük qayıdışın başlanğıcı qoyuldu. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan rayonunda "ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimində iştirak etdilər və burada yaradılan şəraitlə tanış oldular.

2022-ci il iyulun 19-da Zəngilanın Ağalı kəndinə əhalinin köçürülməsinə start verildi və vaxtilə yurdlarından zorla didərgin salınan ağalılılar torpaqlarında xoşbəxt həyata qədəm qoydular.

Zəngilanda daha bir əlamətdar gün 2021-ci il oktyabrın 4-də yaşandı. Prezident İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Şərqi Zəngəzurun "hava qapısı"nın - Zəngilan Beynəlxalq Hava Limanının təntənəli açılışı gerçəkləşdirildi.

### Yeni yollar, nəhəng tunellər

Prezident İlham Əliyev Şərqi Zəngəzur iqtisadi bölgəsində yerləşən Kəlbəcərin bərpasına, yenidən qurulması strategiyasına ötən il avqustun 16-da Toğanalı-Kəlbəcər avtomobil yolu üzərində Murovdağda inşa olunacaq 11,6 kilometrlik möhtəşəm tunelin təməlini atmaqla start verib.

Bu il iyunun 26-da Kəlbəcərə yenidən səfər edən İlham Əliyev Kəlbəcər şəhərinin baş planı ilə tanış olub, İşğal və Zəfər muzeyləri kompleksinin, Rəqəmsal İdarəetmə Mərkəzinin, rayonda su istehsalı zavodunun, "İstisu" sanatoriyasının təməlini qoyub.

Laçın rayonunda da böyük layihələr həyata keçirilir. Yollar çəkilir, tunellər salınır, elektrik stansiyaları quraşdırılır, beynəlxalq hava limanı tikilir.

Dövlət başçısı Laçın rayonunun işğaldan azad olunmuş Zabux və Sus kəndlərinin layihələndirilməsi və tikintisi işləri ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.

Bu il sentyabrın 22-də Laçın şəhərinə səfər edərək orada Azərbaycan bayrağını dalğalandıran Müzəffər Ali Baş Komandan İlham Əliyev tezliklə Laçın şəhərinin bərpa ediləcəyinin müjdəsini də xalqımıza çatdırıb.

Qubadlı şəhərinin də baş planı təsdiq olunub və şəhərdə yeni təməllər atılıb. Cari il oktyabrın 19-da dövlət başçısı Qubadlıya səfər edərək İşğal və Zəfər muzeyləri kompleksinin təməlini qoyub. Şəhər şimal (Kəlbəcər) və cənub (Zəngilan) xidmət, istehsalat şəbəkələrinin bağlantı nöqtəsi olmaqla kənd təsərrüfatı, sənaye sahələrinin birgə inkişaf etdiriləcəyi, innovativ iş yerlərinin, bağçılıq imkanları üzrə tədris kampusuna malik, eləcə də su mənbələrinə həssas yanaşmaların təşəkkül tapdığı ekoloji dayanıqlı rayon mərkəzi kimi formalaşdırılacaq. Növbəti 20 il ərzində şəhər ərazisinin 505 hektara, əhali sayının isə 14 min nəfərə çatdırılması planlaşdırılır.

Qarabağ və Şərqi Zəngəzurda 30 il ərzində barbar ermənilər tərəfindən vəhşicəsinə dağıdılan tarixi, mədəni, dini irsimiz də bərpa olunur. Bu istiqamətdə Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondu mühüm layihələr gerçəkləşdirir.

### Milli prioritet

Göründüyü kimi, çox qısa zaman ərzində Qarabağ və Şərqi Zəngəzurda həyat öz məcrasına qayıtmağa başlayıb. Eləcə də işğaldan azad edilmiş ərazilərə Böyük qayıdış Azərbaycanın 2030-cu ilədək beş milli prioritetindən biri kimi müəyyən olunub.

Prezidentin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın icrasını təmin etmək məqsədilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi Qarabağ və Şərqi Zəngəzurda qarşıdakı illərdə gerçəkləşdirilməsi nəzərdə tutulan bərpa-quruculuq işlərinə mühüm töhfə verəcək.

Göründüyü kimi, qurucu lider İlham Əliyevin rəhbərliyi altında Azərbaycan dövləti 10 min kvadratkilometrdən çox ərazidə nəhəng bərpa işləri həyata keçirir, keçmiş məcburi köçkünlərin dədə-baba yurdlarına qayıtmaları üçün misilsiz işlər gerçəkləşdirir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*















